# Beynəlxalq mədəni əlaqələr

## dünyaya inteqrasiyanın istiqamətlərindən biri kimi



**Bu gün bəşəriyyət keyfiyyətcə yeni bir tarixi mərhələyə qədəm qoymuşdur. Üçüncü minilliyin astanasından olub-keçənlərə nəzər saldıqda çox böyük sivilizasiyaların, mədəniyyətlərin yaranıb inkişaf etdiyinin şahidi oluruq.**

Mədəniyyət bütün dövrlərdə yer üzündəki xalqların ən çox qarşılıqlı ünsiyyət, qarşılıqlı anlaşma, zənginləşmə prosesinin getdiyi meydan olmuşdur. "Qılınclar, top-tüfənglər danışanda mədəniyyətlər susmuşdur" deyimi, öz mənşə xüsusiyyətinə görə bir o qədər də məntiqi formada səslənmir. Çünki, məhz mədəniyyətlərin bir- biri ilə qovuşması, vəhdəti bir çox dünyəvi problemlərin həlli üçün yeganə açar rolunu oynamışdır. Mədəni mübadilə sülh və əmin- amanlıq uğrunda mübarizə ideallarının gerçəkləşməsində xalqların bir-birini dərk etməsi üçün əsas vasitələrdən biri olmuşdur.

Bu gün "beynəlxalq mədəni mübadilə" anlayışı "əlaqə", "münasibət", "qarşılıqlı təsir", "əməkdaşlıq" terminləri ilə əvəz olunur. Əslində bu anlayışların bir- birindən köklü səviyyədə fərqləndirilməsinin elmi əsasa bir o qədər ehtiyacı yoxdur. Olsa da, bu fərq müəyyən incə detallarla izah edilə bilər. Məsələn, əgər "mədəniyyətlərin qarşılıqlı təsiri" ifadəsi işlədilirsə, deməli, bu prosesi zəruri edən mədəni əlaqə, mədəni mübadilədən söhbət gedir. Çünki hər hansı bir təsir üçün hərəkət, inkişaf amilinin olması zəruridir.

"Beynəlxalq mədəni əlaqə" prosesi ilk baxışda asan bir məsələ kimi görünsə də, bunun çox qədim tarixi kökü, təşəkkül xüsusiyyətləri mövcuddur.

Beynəlxalq mədəni əlaqələr mədəniyyətlərin tarixi birliyinin ən vacib aspektlərindən biridir. Cəmiyyətlərin istehsal qüvvələrinin inkişafı əsasında xalqlar arasında mədəni münasibətlər durmadan artmağa başlamış, bu isə onların sintezi üçün ən obyektiv məqam rolunu oynamışdır. Mürəkkəb sinfi, milli və digər ziddiyyətlərin mövcud olduğu şəraitdə gerçəkləşən mədəniyyətlərin sintezi müasir dövrdə onun beynəlmiləlləşməsi xarakterini üzə çıxarır.



Mədəni sintez transformasiyalar dövründə qarşılıqlı təsirin nəinki forması, həm də başlıca mənbəyi rolunu oynayır. Milli və bəşəri, etnik və bəşəri, etnik- milli və bəşərinin sintezə qovuşması bütün mədəniyyətlərin inteqrasiyası üçün ən məqbul sayılan yoldur.

Müasir texnika, riyazi elmlər, tibb və təbiətşünaslıq elmləri öz nailiyyət və uğurlarını beynəlxalq səviyyədə koordinasiya edir. Digər tərəfdən, hər bir milli mədəniyyət özünə kənardan ünsürlər də əlavə etmişdir. Milli mədəniyyətin tərkib hissəsinə çevrilən bu ünsürlər çox vaxt özünün beynəlxalq koloritini qoruyub saxlayır. Bu, xüsusilə, böyük və məşhur şəhərlərin timsalında təzahür edir. Müasir dövrdə teatr repertuarları, konsert zalları, kino və moda milli formalarla öz işini bitmiş hesab etmir. Elə mədəni hadisələr mövcuddur ki, öz təbiətinə görə beynəlxalq miqyasa mənsubdur. Durmadan artan beynəlxalq mədəni birliklər, yer kürəsinin bütün nöqtələrinə müraciət edən radio-televiziya, kompyuterləşmə beynəlxalq inteqrasiyanın ən müasir texnogen vasitələrindəndir. Hər bir millətin dilində beynəlmiləl leksika geniş vüsət almağa başlayır. Ayrı-ayrı elmlərin xüsusi terminologiyasına daxil olan xarici sözlər beynəlxalq mədəni əlaqələrin ən aktiv ünsürünə çevrilir. Bunlar bəşəri tərəqqi üçün əhəmiyyət kəsb edir və dünya mədəniyyətinin konkret tarixi elementləri rolunu oynayır.

"Beynəlxalq mədəni əlaqə" tərifinin müəyyənləşməsi məsələsinin öyrənilməsi üçün ilk növbədə, dünya tarixində bu hadisənin inkişaf tendensiyalarına diqqət yetirək. Həmin anlayışın müəyyən edilməsində bizim mədəniyyət haqqındakı biliklərimizin səviyyəsi mühüm yer tutur.

İnsanların ixtiyarında olan mədəniyyət zənginləşdikcə, təsirliliyini artırdıqca ictimai qarşılıqlı təsir daha da mürəkkəb və sıx forma alırdı: mədəni dəyərlərin yaradılması və istehlakı gedişində insanlar daha sıx birlik, kollektiv halında birləşir. İstehsal qüvvələrinin yüksəlişi əsasında yer kürəsi əhalisinin daimi artımı baş verir. Dünyada insanların sayı artdıqca, onlar arasında qarşılıqlı əlaqəyə də zəruri ehtiyac duyulur.

Mədəniyyət müəyyən tamlığa, bütövlüyə malikdir. Müxtəlif mədəni sahələrdə bir- birindən iqtibas xüsusiyyətləri bu prosesə məxsus olan qanunauyğunluqları nəzərdən qaçırmır. Bu qanunauyğunluqlar mədəniyyətin bütün tərəflərini əhatə edən, aparıcı rol oynayan cəhətində təzahür tapır. İqtibas və ya ondan imtinanın səbəblərini mədəniyyətin bir sahəsində deyil, ümumi həyat tərzində axtarmaq lazım gəlir.

Bir-birindən götürmə, əxz etmə, iqtibas - həmişə dialektik bir prosesdir. İqtibas edilmiş xüsusiyyət, adətən ya onu qəbul etmiş mədəniyyətin əvvəllər mövcud olmuş cəhəti ilə qovuşur, ya da mədəni kontekstdə yeni mahiyyət kəsb edir.

Mədəni ünsiyyət prosesində daxil ilə xaricin vəhdəti prosesin baş vermə xüsusiyyətləri ilə bağlıdır. Mədəni mübadilə vəziyyətlərin müxtəlifliyində ümumi cəhətlər də vardır. Bir xalqın digəri ilə mədəni ünsiyyətinin aşağıdakı mərhələləri mövcuddur:

1) Xalqların bir-biri ilə yaxınlığı, təması. Bu zaman insanlar bir-birinin mədəniyyəti, həyat tərzi ilə tanış olur.

2) Qarşılıqlı münasibətlərin qurulması, özgə mədəniyyətin öyrənilməsi, mədəniyyət formaları ilə seçmə mübadilə. Buraya əsasən əşya, zinət məmulatlarının mənimsənilməsi, digər dilin öyrənilməsi, adət-ənənələrlə tanışlıq, mədəniyyət təcrübəsinə yiyələnmə də aid olunur.

3) Mədəni sintez. Əvvəllər yad və özgə hesab edilən məqamların öyrənilməsindən mənimsənilməsinə keçid kimi başa düşülən mədəni sintez mədəniyyətdə iqtibasın əsas istiqamətlərindən birini təşkil edir. Mədəni sintezin əsas növlərindən biri beynəlxalq ünsiyyətin təsiri altında yaranan yeni mədəni formalardır. Mədəni sintezi ümumiləşdirərək belə müəyyən etmək olar ki, o, müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirinin nəticəsi olmaqla tanışlıqdan öyrənilmə və buradan da mənimsənilməyə keçid alan bir prosesdir. Mədəni sintezlə bağlı bir çox tarixi misallar göstərmək olar. Bələlərindən biri haqqında izahat verək: məsələn, Qandhara sənəti Guşan padşahlığı çağına təsadüf etsə də, onun çiçəklənməsi Kanişkinin hökmranlığı (b.e. 78-123- cü illər) çağına aiddir. O zaman Guşan padşahlığı Orta Asiya və müasir Əfqanıstanın və Hindistanın Şimal - Qərb hissələrini zəbt etmişdi. Lap əvvəllər burada yunan - bəktaşilərin çarlığı mövcud olmuş, mədəniyyətin yayılması nöqteyi-nəzərinə görə o Qərb dünyası ilə İran, Şimal-Qərbi Hindistan, Çinlə əlaqələrin əlverişli körpüsü rolunu oynamışdı. Qandhar incəsənətində yunan, hind və digər mədəniyyətlərin təsirləri çarpazlaşırdı. Dövrümüzə qədər bu sənətə dair bir çox nümunələr

gəlib çatmışdır.

Eyni misalları tarixin müxtəlif dövrlərinə təsadüf edən mədəniyyətlərdə də görmək mümkündür.

Mədəniyyətin bu və ya digər hadisələri cəmiyyətdə özü üçün əlverişli zəmin tapıbsa, yerli mədəniyyətin elementləri ilə birgə həyat sürürsə, deməli, o, xalqın mədəniyyətində zəruri və ehtiyac duyulan bir amildir. Onun qiymət dəyərləri beynəlxalq mədəni əlaqələr, mədəni sintez üçün xarakterik xüsusiyyətdir. Beynəlxalq ünsiyyətə dəyərlər nəzəriyyəsi nöqteyi-nəzərindən yanaşsaq, görərik ki, burada əsas yeri mədəni dəyərlərlə mübadilə tutur.

Bu anlayışın əhəmiyyəti mədəniyyətlərin qarşılıqlı zənginləşməsi üçün dünyəvi münasibətlərin qurulmasını zəruri edir. Bu anlayışdan istifadə etməklə biz beynəlxalq əlaqələrin müasir dövrdə ən aktual olan bir problemi haqqında məsələlər həll edirik. Bəşəri, planetar münasibətlərin təhlilində anlayışın özünəməxsus rolu və əhəmiyyəti vardır.

Beynəlxalq mədəni əlaqələr planetar prosesin əsas tərəflərindən birini təşkil edir. Planetar cəmiyyətlər, bir çox lokal cəmiyyətlər onların tarixindən formalaşaraq inkişaf etmişdir. Bu cəmiyyətlər bir- birilə təmasda olaraq dünya tarixini yaratmış və yaratmaqdadırlar. Planetar proseslər münasibətlərinə görə, lokal cəmiyyətlər və tarixən onların formalaşmış mədəniyyətləri daxili, onlarla münasibət isə xarici mahiyyəti kəsb edir. Beynəlxalq ünsiyyətin əsas aspekti olan mədəni əlaqələrin qayəsini məhz mədəni dəyərlərlə mübadilə təşkil edir.

Tarixin gedişində mədəni əlaqələrin yüksəlişi dünyanın inkişaf tendensiyasına çevrilir. Beynəlxalq əlaqələrin coğrafi sahələrinin genişlənməsi ilə yanaşı, onların intensivliyi də artır. Mədəni əlaqələrin tarixi təcridolunma faktından daha çoxtərəfli əlaqələrə, əraziyə görə öz qonşuları ilə lokal münasibətlərdən daha geniş ünsiyyətə, nəhayət, transkontinental və oradan da planetar miqyasa keçidlə xarakterizə olunur.

Beləliklə, "beynəlxalq mədəni əlaqələr" anlayışının təhlili göstərir ki, bu hadisə ictimai-tarixi bir proses kimi bəzi məqamları differensiallaşdırır. Bunlar mədəni ünsiyyətin müxtəlif təzahürləri olan "mədəni münasibət", "mədəni əlaqə", "mədəniyyətlərin qarşılıqlı təsiri" və "mədəni sintez"dir.

**● Aidə QAFAROVA**

## Ədəbiyyat

1. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995- ci illər). B. Gənclik, 1996. s. 140.
2. Qloballaşma və texnogen sivilizasiya dövründə Azərbaycanda elm, təhsil və mədəniyyət (Elmi-praktiki Konfransın materialları). B. 2004, s. 201.
3. Данилович М.С. Глобализация: Взаимовлияние культур. М. 1999. стр. 223.

**Резюме**

**МЕЖДУНАРОДНЫЕ КУЛЬТУРНЫЕ СВЯЗИ - КАК ОДНО ИЗ НАПРАВЛЕНИЙ ИНТЕГРИРОВАНИЯ С МИРОМ**

Как одно из культурных событий, международные связи носят глобальный характер. Международные культурные связи, как процесс, обладают своеобразными особенностями исторического развития. Так, развиваясь параллельно с тенденцией развития культуры, этот процесс достиг сегодняшнего уровня.

Сущность международных культурных связей образует культурный обмен, синтез и диалог культур. Вступая друг с другом в диалог, культуры обогащаются, принимая глобальный характер. Эта особенность, один из существенных показателей международных культурных связей.

**Summary**

**INTERNATIONAL CULTURAL RELATION-AS ONE OF DIRECTIONS OF INTEGRATION TO THE WORLD**

İnternational relations, as one of cultural events, have universal effect according to their scope. İnternational cultural relation has its special historical development specifications. As if this process reached the present level by stepping with development tendency of culture in parallel form.

Essence of international cultural relations consists of cultural exchange, synthesis and dialogue of cultures. Cultures become rich with making dialogue with each other and get universal specification. This specification is one of main indications of international cultural relations.